*1 dekabr QİÇS-ə Qarşı Beynəlxalq Mübarizə Günüdür*

# QİÇS-lə mübarizə ümumxalq işidir

QİÇS nə deməkdir? QİÇS qazanılmış ümmunçatışmazlığı sindromu deməkdir. Hazırda geniş miqyas almış QİÇS epidemiyası insan həyatı üçün təhlükə törədən bəlaya çevrilib. Bu qlobal problem cəmiyyətin bütün təbəqələrini—milləti, ictimaiyyəti, ailəni, hər bir fərdi əhatə edir. Bu xəstəliyə yoluxmuş, şəxs orta hesabla 5-10 il ərzində sağlam görünür və hətta bəzi hallarda orqanizmdə bu virusun kök salmasından heç özünün də xəbəri olmur.

BMT-nin QİÇS ilə Mübarizə Proqramının və Ümumdünya Səhiyyə Təşkilatının son illərdə apardığı hesablamalara görə immun çatışmazlığı virusu ilə yaşayan insanların sayı təqribən 42 milyona çatmışdır. QİÇŞ-dən ölənlərin sayı 24 milyonu keçmişdir. Təkcə ötən il bu xəstəlikdən 1 milyondan çox insan vəfat edib.

QİÇS infeksiyası keçmiş Sovet məkanında Ukrayna, Rusiya, Belarus və Moldovada böyük sürətlə yayılmışdır. Hazırda Afrikanın Böyük Səhraaltı ölkələri HİV virusunun geniş yayıldığı bölgə sayılır. Dünyanın bu regionunda daha çox insanlar, əsasən də qızlar bu xəstəliyə yoluxma riski altındadır.

QİÇS-dən qorunmağın yeganə yolu sağlam həyat tərzi keçirmək və təsadüfi adamlarla münasibətlərdə ehtiyatlı olmaqdır. Hələ 20 il əvvəl biz QİÇS xəstəliyinə çox uzaqda olan bir təhlükə kimi baxırdıq. Amma bu günkü reallıq başqadır. Ona görə də bu sahədə insanları maarifləndirmək üçün tədbirlər görülür. Alimlərin «XXI əsrin vəbası» adlandırdıqları bu virusa qarşı bütün beynəlxalq qurumlar qlobal layihələr həyata keçirirlər. QİÇS epidemiyasını «zəmanəmizin inkişaf yolunda ən təhlükəli problem adlandıran BMT bütün hökumətləri bu məsələnin həlli zəminində daha güclü və əlaqələndirilmiş bir hərəkat üzrə çox böyük işlər görməyə çağırır.

Azərbaycan hökuməti də bu dəhşətli xəstəliyin qarşısının alınmasına böyük əhəmiyyət verir. 1996-cı ildə Azərbaycan Parlamenti «İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin yayılmasının qarşısının alınması haqqında» Qanun qəbul etmişdir.

Dünyanı bu müdhiş xəstəliyə qarşı mübarizə aparmağa sövq etmək üçün BMT-nin xüsusi qərarı ilə 1 dekabr QİÇS-ə qarşı Beynəlxalq Mübarizə Günü elan edilmişdir.

**«Qəbələ».**

*Tanış olun, həmyerlimizdir*

# Başını uca tut

***Haqqında söhbət açdığımız tanınmış polis veteranı, bütün varlığı ilə ana torpağa, elə, obaya—boya-başa çatdığı ata-baba yurdu Buma bağlı olan eloğlumuz Vəli Məmmədovdur. Onun mənalı ömür yolu da bu cəhətdən bir çoxlarına örnək sayıla bilər.***

***Vəli Məmmədov həm də xarakter etibarı ilə ciddi, tələbkar, prinsipial, qayğıkeş insandır. Onun şəxsiyyət bütövlüyü ucalardan uca görünür.***

Vəli Məmmədov 1949-cu ildə bumlu Musa kişinin ocağında anadan olub.- Beş övlad atası Musa Məmmədov savadı az olsa da maarifpərvər idi. Dünya görmüş ağsaqqalın arzusu övladlarını oxutmaq, onları ali təhsilli mütəxəssislər kimi görmək olub. Nə yaxşı ki, onun arzuları ürəyində qalmadı, övladlarının hamısı müxtəlif sahələr üzrə təhsil aldılar.

Vəli Məmmədov 1966-cı ildə Bum qəsəbə (kənd) orta məktəbini bitirərək Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olub. Onun tərcümeyi-halına yaxından bələd olduğumdan bilirəm ki, daxili işlər orqanlarında çalışmaq arzusu onda lap kiçik yaşlarından baş qaldırmışdı. Ona görə də Vəli Məmmədov bu arzusu ilə Moskvada Milis Akademiyasına daxil olub və buranı müvəffəqiyyətlə bitirdikdən sonra Bakı şəhərinin Yasamal, Nəsimi, Xətai və Suraxanı rayonlarının polis şöbələrində məsul vəzifələrdə yorulmadan çalışıb. O, bu vəzifələrdə çalışarkən ictimai asayişin keşiyində, xalqın xidmətində möhkəm dayanmış, öz vəzifə borcunu ləyaqətlə yerinə yetirmişdir. Onun səmərəli fəaliyyəti dəfələrlə Respublika Daxili İşlər Nazirliyi tərəfindən qiymətləndirilib, fəxri fərmanlarla təltif edilib. Vəli Məmmədova hüquq-mühafizə orqanlarında nümunəvi xidmətlərinə görə ən yüksək qiyməti xalqımızın ümummilli lideri Heydər Əliyev vermişdir. Ulu öndərin 2002-ci ildə imzaladığı sərəncamla o, «Azərbaycan bayrağı» ordeni ilə təltif olunmuşdur.

Vəli Məmmədov 1995-ci ilin noyabr ayından 2008-ci ilə qədər Bakı Metropoliteninin mühafizəsi üzrə polis şöbəsinin rəisi vəzifəsində işləmişdir. O, bu şöbənin rəisi işlədiyi illərdə metropolitenin polis əməkdaşları Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, vətəndaşların təhlükəsizliyinin qorunmasında, ictimai asayişin sivil əsasda qurulmasında, neqativ halların aradan qaldırılmasında daim fəal və fədakar mövqe tutmuşlar.

Sözü bütöv, mərd eloğlumuz, istefada olan polkovnik Vəli Məmmədov bir vətənpərvər kimi Qarabağ döyüşlərinin də iştirakçısı olub. 1990—1991-ci illərdə Goranboy, Cəbrayıl, Füzuli, Ağdam və Şuşa rayonları uğrunda gedən döyüşlərdə mərdliklə döyüşüb. Bəli, Vəli Məmmədov harada olursa-olsun, orada sevilib, seçilib və birinci olub.

Bu gün biz də istefada olan polkovnik Vəli Məmmədovla fəxr edir, öyünürük və deyirik:

—Başını həmişə uca tut, əziz dost, ucalıq sənin ünvanındır!

**✍ Emin BARATOĞLU,**
**AYB və AJB-nin üzvü.**

# Təhsil millətin gələcəyidir

***«Ekspress» Təhsil Mərkəzinin təşkilatçılığı ilə Azərbaycanın dövlət müstəqilliyinin ildönümü və təhsil mərkəzinin 10 illik yubileyi münasibətilə «Təhsil millətin gələcəyidir» mövzusunda tədbir keçirildi. Yubiley tədbirinə ümumtəhsil məktəblərinin müəllimləri, ziyalılar, əmək kollektivlərinin və rayon ictimaiyyətinin nümayəndələri qatılmışdılar.***

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoydular və dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad etdilər.

Qəbələ Mədəniyyət Mərkəzində davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Təhsil mərkəzinin təsisçisi Bünyad Şahvələd tədbiri açaraq mərkəzin keçdiyi yoldan və əldə edilən uğurlardan ətraflı danışdı. O, mərkəzin nəzdində fəaliyyət göstərən kursların Qəbələ təhsilinə verdiyi töhfələrdən geniş bəhs edərək bu istiqamətdə daha mütərəqqi layihələrin həyata keçiriləcəyindən danışdı.

Sonra tarix müəllimi İlham Əfəndiyev müstəqilliyimizin 25 illiyinə, ulu öndər Heydər Əliyevin müstəqilliyimizin əldə olunması və qorunub saxlanılması sahəsində göstərdiyi misilsiz xidmətlərə dair məruzə etdi. Daha sonra mövzuya həsr olunmuş videoçarx nümayiş etdirildi.

Mövzu ətrafında ümumtəhsil məktəblərinin müəllimləri, ziyalılar və kurslarda iştirak edən dinləyicilərin valideynləri çıxış edərək, çağdaş təhsilimizin millətin gələcəyi, müstəqilliyimizin qarantı olduğunu qeyd etdilər. Onlar ölkə elminə, idarəçilik sisteminə və sair sahələrə görkəmli şəxsiyyətlər bəxş edən Qəbələdə bu kursların çox mühüm tədris bazası funksiyasını yerinə yetirdiyini vurğuladılar.

Hazırlıq kursları müəllimlərinin bir qrupuna, eləcə də qəbul imtahanlarında yüksək bal toplayan məzunlara təhsil mərkəzinin hədiyyələri təqdim olundu.

***«Qəbələ».***

# Laza-əzəmət və gözəlliyin ahəngi

***Laza rayonumuzun dağlar qoynunda yerləşən ən füsunkar mənzərəli kəndlərindən biridir. Rayon mərkəzitndən 8 kilometr şimal-şərqdə məşhur Dəmiraparan çayının sahilində Baş Qafqaz sıra dağlarının cənub yamacında qərar tutub bu əzəmətli kənd. 300 ildən artıq yaşı olan bu kənd həmişə qonaq-qaralıdır. Bəlkə təbiətin gözəlliyi bu kəndin camaatını daha mehriban, səxavətli etmişdir.***



Kənd sakinlərinin əsas hissəsi heyvandarlıqda məşğul olduğundan soyuqlar düşməmişdən öncə onlar «Küdrü» düzündəki qışlaqlara köçüb. Qonaqların da sayı azalıb. Orda-burda evlərdən-ocaqlardan yüksələn tüstülər qışın sərt üzünə baxmayaraq xeyli ailənin qışı da burada keçirməyə üstünlük verdiyini göstərir. Kənd məktəbində də uşaqların səsləri eşidilir.



Əlaqədar məsul şəxslərdən aldığımız məlumata görə kənd əhalisi də məktəb də qış üçün əsas yanacaq vasitəsi olan odun tədarükünü görüb. Qışda qalın qar yağsa belə rayon mərkəzi ilə əlaqənin kəsilməməsi üçün lazımi hazırlıq işləri həyata keçirilib. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Nazim Cənnətəliyev əməkdaşımızla müsahibəsində bildirib ki, kənddəki köhnəlmiş elektrik transformatorunun yenilənməsinə ehtiyac var və bu istiqamətdə əlaqədar təşkilatlarla birlikdə hazırlıq işləri gedir. Sakinlərlə söhbət zamanı bildiriblər ki, Lazanın qışı da digər fəsillər kimi çox gözəldir. Yolların çəkilməsi və yeni köpülərin tikilməsi Lazanı qışda da qonaqlar üçün cazibədar edib.

**«Qəbələ».**